MÜNDƏRİCAT

QRAFİKA
4
RƏNGKARLIQ
33
TƏTBİQİ SƏNƏT
37
HEYKƏLTƏRAŞLIQ
40

Səfərova Xalidə
“Şirin və Xosrov çovqan oynayarkən”
kağız, qarışıq texnika 60x50

SƏRƏNCAM

Azərbaycan Respublikasında 2021-ci ilin “Nizami Gəncəvi İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.

Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış “Xəmsə”si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir.

Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilmişdir. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaratmışdır. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş “Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında” qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir.

2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. 2021-ci il Azərbaycan Respublikasında “Nizami Gəncəvi İli” elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Nizami Gəncəvi İli” ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 yanvar 2021-ci il.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi (1141-1209) dünya fikir tarixində silinməz izlər qoymuş, ölkəmizin sərhədlərindən çox-çox uzaqlarda öz əsərləri ilə böyük şöhrət qazanmışdır. 2021-ci ilin Azərbaycan Respublikasında "Nizami Gəncəvi İli" elan olunması, şairin 880 illiyinin müxtəlif qurumlar tərəfindən qeyd edilməsi təsadüfi deyil. İl çərçivəsində Nizami Gəncəvi irsinin təbliği, tanıdılması işlərinin genişlənməsi, insanların mənəvi və mədəni həyatında mövzunun daha da aktuallaşmasının şahidi oluruq.
Nizami Gəncəvinin “Xəmsə"si ilə dünya ədəbiyyatına tamamilə yeni poetik nəfəs gətirməyi ilə yanaşı, orta əsrlərdən başlayaraq Azərbaycan və Şərq ölkələrinin bir çoxunun rəssamlarını da öz güclü mənəvi təsiri altında saxlamışdır. Onun əsərləri orta əsr Azərbaycan və Şərq miniatürlərini yaradan böyük sənətkarların əsas ilham qaynağı olmuşdur. İllər, qərinələr ötməsinə baxmayaraq, Nizami Gəncəvinin əsərləri müasir dövrümüzdə də rəssamlarımızı düşündürür. Onların yaradıcılığında Nizami Gəncəvi irsindən qaynaqlanan mövzu və obrazlara az rast gəlmirik. Azərbaycan Dövlət Rəsm Qalereyasının kolleksiyasında saxlanılan əsərlər də məhz bu əsnada yaradılmış, təsviri sənətimizin maraqlı nümunələrindən ibarətdir. Bu əsərlər ideyalarının orijinallığı, özünəməxsus rəng palitrası və kompozisiya həlli, eyni zamanda müxtəlif rəssamların üslub və seçilmiş mövzunun individual interpretasiyası ilə diqqətimizi çəkir.
İnanırıq ki, qalereyanın fondunda saxlanılan əsərlərin kataloqu kolleksiyamızın digər özəllikləri ilə yanaşı məzmun və mövzu zənginliyi haqda təsəvvür yaratmağa imkan verəcəkdir.

Qalib Qasımov
Azərbaycan Dövlət Rəsm Qalereyasının direktoru v.i.e

The great Azerbaijani poet and thinker Nizami Ganjavi (1141-1209) gained great fame with his works far from the borders of our country. 2021 was declared the "Year of Nizami Ganjavi" in the Republic of Azerbaijan. The 880th anniversary of the poet is celebrated by various institutions. Within the framework of the year, the work on propaganda and popularization of Nizami Ganjavi's legacy is expanding, and the issue is becoming more relevant in the spiritual and cultural life of the people. Nizami Ganjavi brought a new poetic breath to world literature with his "Khamsa" and his works have been strongly influenced by the artists of Azerbaijan and many Eastern countries since the Middle Ages.His works have been the main source of inspiration for the great artists who created Azerbaijani and Eastern miniatures. Nizami Ganjavi's works also attract the attention of modern artists. The works kept in the Azerbaijan State Art Gallery collection contain interesting examples of our fine arts. The originality of the ideas of these works, their unique color palette and compositional solution, as well as the individual interpretation of the style and chosen theme of different artists attract our attention. We believe that the catalog of the works kept in the gallery's fund will give you an idea of the richness of content and themes, as well as other features of our collection.

Director of the Azerbaijan State Art Gallery Galib Gasimov

QRAFİKA

Abdullayev Mikayıl “Leylinin qəbri üstündə”
kağız,qarışıq texnika 79x77

Səfərova Xalidə “Fərhad”
kağız, qarışıq texnika 70x50

Səfərova Xalidə
“Fərhad səhranı sulayarkən”
kağız, qarışıq texnika 70x50

Xalıqov Qəzənfər
Nizami Gəncəvinin “İsgəndərnamə” əsərinə illüstrasiya. “İsgəndərin birliyi zəncilərə başçılıq edir” kağız, karandaş 25x15

Xalıqov Qəzənfər
“İsgəndərnamə” əsərinə illüstrasiya
k.s.b.29x20

Abdullayev Mikayıl
“İsgəndərnamə. Şərəfnaməyə yazılış”
kağız temper 47x35

Xalıqov Qəzənfər
Nizami Gəncəvinin “İsgəndərnamə” əsərinə illüstrasiya. “Afrikada faciəli qələbə” kağız, karandaş 25x15

Abdullayev Mikayıl
“Leylinin qəbri üstündə”
kağız,qarışıq texnika 79x77

Xalıqov Qəzənfər
Nizami Gəncəvinin "İsgəndərnamə" əsərinə illüstrasiya. "Daranın ölümü"
kağız, karandaş 25x15

Seyidov Azər
"Bəhram şirlərlə güləşir".
k.s.b 35x20

Pariyab Əli
"Bəhram və Fitnə"
kağız, qarışıq texnika 20x15

Kazımzadə Kazım
"Şirin Xosrovun portretinə baxır"
kağız, qarışıq texnika 39x37

Pariyab Əli
Bəhram ovda.
kağ.qarş.texn.20x15

Xalıqov Qəzənfər
Nizaminin "İsgəndərnamə" əsərinə illüstrasiya.Yenilməz İsgəndər.
kağ.karandaş.25x15

Ağayeva Mənzər
"Nizami lirikası".
kağ.quaş.tuş.17x12

Səfərova Xalidə
“Şirin və Xosrov çovqan oynayarkən”
kağız, qarışıq texnika 60x50

Nərimanbəyova Nigar Vidadi qızı
“Leylinin toyu”
kağız, levkas, tuş 55x40

Ağayeva Mənzər
“Nizami lirikası”
kağız, qarışıq texnika 17x12

Kazımzadə Kazım
“İsgəndər alimlərin arasında”
k.s.b.53x32

Ağayeva Mənzər
“Nizami lirikası”
kağız, quaş tuş.17x12

Nərimanbəyova Nigar
Nizami Gəncəvinin “Leyli və Məcnun”
əsərinə cizgi filim eskizi
kağız, levkas 70x60

Kazımzadə Kazım
“Xosrov və Şirinin ilk görüşü”
kağız, qarışıq texnika 34x34

Fərəcov Fuad
“Nizaminin dünyası”
k.s.b.quaş 100x70

Abdullayev Mikayıl
“İsgəndər və yeddi filosof”
kağız, qarışıq texnika 77x79

Nəzirov Rasim
“Nizami lirikası”na illüstrasiya
kağız, tuş 52x24

Nəzirov Rasim
“Nizami lirikası”na illüstrasiya
kağız, tuş 52x24

Nəzirov Rasim
“Nizami lirikası”na illüstrasiya
kağız, tuş 52x24

Ağayeva Mənzər
“Nizami lirikası”
kağız, quaş tuş.17x12

Ağayeva Mənzər
“Nizami lirikası”
kağız, quaş tuş.17x12

Kazımzadə Kazım
“Bəhram şirlər arasından tacı götürür”
kağız, karandaş 54x40

Kazımzadə Kazım
“ Bəhram yeddi gözəlin portretini görür”
kağız, karandaş 54x40

Babayev Nazim
“Nizami lirikası”
kağız qarışıq texnika 70x50

Nərimanbəyova Nigar
“Nizami silsiləsi. “Arzular”
faner, qarışıq texnika 60x70

Babayev Nazim
“Nizami lirikası”
kağız qarışıq texnika 70x50

Babayev Nazim
“Nizami lirikası”
kağız qarışıq texnika 70x50

Babayev Nazim
“Nizami lirikası”
kağız qarışıq texnika
70x50

Nərimanbəyova Nigar
Nizami Gəncəvinin
“Leyli və Məcnun” əsərinə
cizgi filim eskizi
kağız, levkas 70x60

Abdullayev Mikayıl
“Şirin çimərkən”
kağız, qarışıq texnika 77x79



Babayev Nazim
“Nizami lirikası”
kağız qarışıq texnika
70x50

Bəhlulzadə Səttar “Leyli”
kağız, rəngli flomaster 56x45

Abbasov Zaur Nizami Gəncəvinin
“Xəmsə” əsərinə illüstrasiya
kağız,qarışıq texnika 24x15



Səfərova Xalidə
“Xosrov və Şirin”
kağız, qarışıq texnika 40x60

Nərimanbəyova Nigar
Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərinə cizgi filim eskizi
kağız, levkas 70x60

Hüseynov Elmas
Nizami Gəncəvinin "Yeddi gözəl" poeması
kağız, qarışıq texnika 68,5x68,5

Hüseynov Elmas
Nizami Gəncəvinin "Yeddi gözəl" poeması
kağız, qarışıq texnika 68,5x68,5

Ağabəyov Mais
"Nizami kinofilminə
eskiz. Duxan"
kağız, qarışıq texnika
53x80

Ağabəyov Mais
"Nizami kinofilminə eskiz.
Şirinin sarayının dağıdılması"
kağız, qarışıq texnika 55x102

Ağabəyov Mais
"Nizami kinofilminə eskiz.
Nizaminin otağı"
kağız, qarışıq texnika 53x80

Ağabəyov Mais
“Nizami kinofilminə eskiz. Nüşabənin sarayı”
kağız, qarışıq texnika 54x102

Abdullayev Mikayıl
“Yeddi gözəl”
kağız, qarışıq texnika 89x210

Nərimanbəyova Nigar
“Leyli və Məcnun cizgi filminə eskiz. Sevgililər”
dikt, qarışıq texnika
40x55

Ağabəyov Mais
“Nizami kinofilminə eskiz. Mütəddinin otağı”
levkas, qarışıq texnika 53x80

Ağabəyov Mais
“Nizami kinofilminə eskiz. Ağabəyin çadrının yanı” kağız, qarışıq texnika 50x100

Hüseynov Elmas
Nizami Gəncəvinin “İsgəndərnamə” əsərinə
qrafik lövhə, kağız quaş 70x70

Ağabəyov Mais
“Nizami kinofilminə eskiz. Müdriklərin qalası”
kağız, qarışıq texnika 60x80

Ağabəyov Mais
“Nizami kinofilminə eskiz. Mədrəsə”
kağız, qarışıq texnika 55x105

Hüseynov Elmas
“Sirlər xəzinəsi”
kağız, qarışıq texnika 70x70

Hüseynov Elmas
“Sirlər xəzinəsi”
kağız, qarışıq texnika 70x70

Hüseynov Elmas
“Sirlər xəzinəsi”
kağız, qarışıq texnika 70x70

Şalıgina Yelena N. “Nizaminin heykəli”
kağız avtolitoqr 35x45

Ağabəyov Mais
“Nizami kinofilminə eskiz.
Qarabasma”
kağız, qarışıq texnika 60x111

Səfərova Xalidə
“Xosrov Şapuru
Bərdəyə göndərir”
kağız qarışıq texnika
50x60

Nərimanbəyova Nigar
“Nizami silsiləsi.
Sübh yuxusu”
faner, qarışıq texnika 60x70

Abdullayev Mikayıl
“Leyli və Məcnun operasına eskiz. Leylinin evində elçilik” kağız, quaş 43x71

Ağabəyov Mais
“Nizami kinofilminə eskiz. Zirzəmi” kağız, qarışıq texnika 54x102



Ağabəyov Mais
“Nizami kinofilminə eskiz. Müdriklərin sarayı” kağız, qarışıq texnika 48x105

Hüseynov Elmas
Nizami Gəncəvinin “Yeddi gözəl” poeması
kağız, qarışıq texnika 68,5x68,5

Nərimanbəyova Nigar
“Leyli və Məcnun cizgi filminə eskiz. Hüzür”
dikt, qarışıq texnika 50x70

Səfərova Xalidə
“Xosrov və Şirin”
kağız, qarışıq texnika 40x60

Abdullayev Mikayıl
“Leyli və Məcnun operasına eskiz.
Leylinin qəbri üstündə”
kağız, quaş 43x71

Hüseynov Elmas
Nizami Gəncəvinin “İsgəndərnamə”
əsərinə qrafik lövhə, kağız quaş 70x70

RƏNGKARLIQ

Zeynalov Hafiz
“Nizaminin gəncliyi”
kətan, yağlı boya 120x140

Zeynalov Hafiz
“Nizaminin gəncliyi”
kətan, yağlı boya 120x140



İsmayılov Rafis “Fitnə”
kətan,yağlı boya 100x80

Səmədov Rauf
“Poeziyaya həsr olunmuş”
kətan,yağlı boya
115x90

Əhmədov Kamal
“Leyli və Məcnun”
kətan,yağlı boya 139x132

Abdullayev Mikayıl
“Məcnun atası ilə”
karton, yağlı boya 100x70

TƏTBİQİ SƏNƏT

Səfərli İ.İ. “Nizami dünyasında”
batika 140x90

Əhmədov V.H.”Bakı Nizami adına muzey” ağac 26x32

Məmmədov S.R. “Nizami haqqında düşüncələr” farfor duz 34x39

Səfərli İ.İ. “Nizami dünyasında”
batika 140x90

HEYKƏLTƏRAŞLIQ

Sücəddinov Qorxmaz
Portret."Nizami Gəncəvi"
ağac 77x58x60

Sücəddinov Qorxmaz Məmmədtağı oğlu Portret.“Nizami Gəncəvi” ağac 77x58x60

Qrafik Dizayner: Mehin Nadirova
Redaktorlar: Gülşən Cəfərova, Həmidə Süleymanova
Fotoqraf: Vaqif Muğalı